# Cavab daha sərt olacaq

## Bütün məsuliyyət Avropa İttifaqının üzərinə düşür

**Azərbaycan və Ermənistan arasında bir neçə aydır davam edən sabitliyi qarşı tərəf növbəti dəfə pozdu. Son təxribatların müəllifi isə Avropa İttifaqı missiyasıdır. Aİ Ermənistanı yeni münaqişəyə təhrik etməklə öz çirkin məqsədlərinə çatmağa çalışır.**



Ermənistan isə bütün dövrlərdə olduğu kimi, yenə havadarlarının saxta vədlərinə inanaraq onların Cənubi Qafqaza müdaxiləsinə şərait yaradır. Bütün bunlar isə regionda sabitliyin, təhlükəsizliyin və əmin-amanlığın təmin olunmasına əngəl törədir. Lakin Azərbaycan heç bir təxribatı cavabsız qoymur.

Prezident İlham Əliyevin dediyi kimi, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmır. Son "qisas əməliyyatı" da bunun növbəti sübutudur.

Hərbi ekspert Ədalət Verdiyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın fevralın 12-də törətdiyi və bir sərhədçimizin yaralanması ilə nəticələnən təxribatına qətiyyətli "qisas əməliyyat"ı ilə cavab verib.

O qeyd edib ki, Ermənistan siyasi-hərbi rəhbərliyi Azərbaycan əsgərinin qanının yerdə qalmayacağına tam əmin olmalıdır: "Bunu Ali Baş Komandan dəfələrlə bəyan edib. Düşmən təxribatları heç zaman cavabsız qalmayıb, qalmır və qalmayacaq. Ermənistan Avropa İttifaqı missiyasının da iştirak etdiyi təxribatlarından əl çəkməsə, Azərbaycan Silahlı Qüvvələrinin cavabı daha sərt olacaq. Düşmənin təxribat törətdiyi hər bir döyüş mövqeyi darmadağın ediləcək, zərurət yaranarsa, həmin mövqelərdə Azərbaycan əsgəri olacaq və dövlət bayrağımız dalqalandırılacaq. Təxribatı törədən düşmənin mövqeyi dağıdılıb, fərari ordusunun canlı qüvvəsi itkilərə məruz qalıb".

Ekspert vurğulayıb ki, baş verən bu hadisəyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və bu təxribatları təşkil edən Avropa İttifaqının missiyasının tərkibində fəaliyyət göstərənlərin üzərinə düşür. Aİ missiyası bu hadisələrə reaksiya vermək, təxribatı qınamaq əvəzinə ərazini tərk etməklə işini bitmiş hesab edir. Ermənistan birdəfəlik anlamalıdır ki, heç bir qüvvə onun arxasında dayana bilməyəcək. Nə Ermənistan, nə də onun havadarları çirkin niyyətlərini gerçəkləşdirmək gücündə deyillər. Buna görə də Paşinyan siyasi avantüralardan əl çəkməlidir. Əks halda Ermənistan daha ağrılı-acılı nəticələr əldə edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 fevral, № 33.- S.8.